# HACIQABUL

№ 17
(651)

03 avqust
2016-cı il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti




## Azərbaycan bölgədə təhlükəsizlik, sabitlik və inkişaf məkanıdır

***Azərbaycanın uğurlu inkişafı təmin edilir, ölkəmizdə təhlükəsizlik yüksək səviyyədə qorunur, ictimai-siyasi sabitlik möhkəmlənir. Ölkə qarşısında duran bütün əsas vəzifələr uğurla icra edilir. 2016-cı ildə də, - baxmayaraq ki, neftin qiyməti hələ də çox aşağı səviyyədədir, - Azərbaycan inamla inkişaf edir. Bunun təməlində düşünülmüş siyasət, apardığımız islahatlar və ölkəmizin gələcəyi ilə bağlı olan proqramlarımız dayanır. Azərbaycan uğurla inkişaf edir. Əminəm ki, biz bu ili də müvəffəqiyyətlə başa vuracağıq.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## Referendum Aktı layihəsi insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində mütərəqqi addımdır

Referendum (ümumxalq səsverməsi) xalqın iradəsini bilavasitə təzahür etdirən hüquqi institutdur.Dünya təcrübəsinə əsasən referendium demokratiyanın düzünə prinsipi kimi tanınır.

Ölkəmizin demokratikliyi həm də onunla müəyyən edilir ki, Konstitusiyaya görə dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Öz müqəddəratını sərbəst və müstəqil həll etmək , idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

Azərbaycan xalqının iradəsinin bilavasitə və ən yüksək ifadəsi dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarında azad, demokratik seçkilərin keçirilməsi , habelə dövlətimizin həyatının ən mühüm məsələlərinə dair öz rəyini ümumxalq səsverməsi yolu ilə bildirməsidir.

Bu müddəalar müstəqil Azərbaycanın 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş ilk Konstitusiyasında öz əksini tapmışdır. 2002-2009-cu illlərdə ölkəmizdə iki referendum keçirilmiş və Konstitusiyaya zəruri dəyişikliklər və əlavələr edilmişdir. Ötən dövr ərzində ölkəmizdə həyata keçirilən bir sıra siyasi və iqtisadi islahatlar, surətli iqtisadi inkişaf, demokratik və hüquqi dövlət quruculuğu yolunda əldə edilmiş nailiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasına yenidən əlavələr və dəyişikliklərin edilməsini zərurətə çevirdi.

***(Davamı 2-ci səhifədə)***

## 2016-cı il avqust ayı üçün Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| Sıra №-si | Vəzifəsi | Həftənin günləri | Qəbul saatı |
|---|---|---|---|
| 1 | İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| 2 | İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| 3 | Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | III | 14:00 |
| 4 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | IV | 14:00 |
| 5 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:**
(02120) 4-41-91, (02120) 4-41-58

# Referendum Aktı layihəsi insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində mütərəqqi addımdır

*(Əvvəli 1-ci səhifədə)*

Məhz buna görə də Azərbaycan Respublikasının Prezidenti 26 iyul 2016-cı il tarixdə Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsinin (referendumun) 2016-cı il sentyabrın 26-da keçirilməsi haqqında sərəncam imzaladı. Azərbaycan Respublikasının MSK-sı 27 iyul 2016-cı il tarixli 11/40 saylı qərarı ilə ümumxalq səsvermənin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planını təsdiq etmişdir. Ötən dövr ərzində 58 saylı Hacıqabul - Kürdəmir seçki dairəsinin DSK-sı Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi Təqvim Planına uyğun olaraq fəaliyyət göstərmişdir.

Dairə seçki komissiyası 20 İ.Ə.D-si üzrə nümayəndəlik, 17 bələdiyyənin ərazisində yaradılan 48 seçki məntəqəsini əhatə edir. O, cümlədən Hacıqabul rayonu üzrə 18 İ.Ə.D-si üzrə nümayəndəlik, 15 bələdiyyə və 41 seçki məntəqəsini əhatə edir. Kürdəmir rayonu üzrə 2 İƏD-si üzrə nümayəndəlik, 2 bələdiyyənin ərazisində yaradılan 7 seçki məntəqəsini əhatə edir.

Seçki dairəsi üzrə seçicilərin siyahısı tam dəqiqləşdirilmişdir. Seçici siyahıları dəqiqləşdirilən zaman yol verilmiş orfoqrafik səhvlər aşkar edilmiş, 106 nəfər qeydiyyatdan çıxanlar, 302 nəfər vəfat edənlər, 216 nəfər hərbi xidmətə göndərilənlər seçici siyahısından çıxarılmış, eyni zamanda 178 nəfər yeni qeydiyyata düşənlər, 204 nəfər hərbi xidmətdən tərxis olunanlar, səsvermə gününə 18 yaşı tamam olan 547 nəfər o, cümlədən Hacıqabul rayonu üzrə 469 nəfər, Kürdəmir rayonu üzrə 78 nəfər seçici siyahısına əlavə edilmişdir. Seçici siyahıları hazırlanan zaman müvafiq icra orqanları, rayon Polis Şöbəsinin Q və ŞVQ, rayon Qeydiyyat Şöbəsi, səfərbərlik və hərbi Çağırış Hacıqabul rayon şöbəsi, seçki dairəsinin ərazisində yerləşən N saylı h/h-nin rəhbərliyi ilə yaxından və mütamadi olaraq əlaqə saxlanılmışdır.

Seçki dairəsinin Hacıqabul rayonu üzrə əhatə etdiyi məntəqələrdə 80-100 yaşlılar 817 nəfər, 100 yaşdan yuxarı 9 nəfər seçicinin olduğu müəyyən olunmuşdur. Seçici siyahılarının tam dəqiqləşdirilməsi zamanı seçki dairəsi üzrə seçicilərin ümumi sayının 44221 nəfər olduğu müəyyən edilmişdir ki, o, cümlədən Hacıqabul rayonu üzrə 39058 nəfər, Kürdəmir rayonu üzrə 5163 nəfər olmuşdur. Hal - hazırda seçici siyahılarının dəqiqləşdirilməsi prosesi davam edir.

Seçki məntəqələri əsasən yeni inşa edilmiş yaxud əsaslı şəkildə təmir və bərpa olunmuş təhsil, mədəniyyət obyektlərində və sair binalarda yerləşir. Məlumat üçün bildirirəm ki, hər bir məntəqəyə məntəqələrin tanınma lövhəsi, Təşviqat lövhəsi, seçici siyahıları üçün 4-8 ədəd lövhə, məlumat lövhəsi, 2 ədəd dövlət bayrağı, dövlət gerbi, 4-10 ədəd səsvermə kabinəsi, seyf, generator, 4 ədəd elektrik qızdırıcısı - radiator, telefon aparatı, 1 ədəd kreslo, 4 ədəd iş stolu, komissiya üzvləri və müşahidəçilər üçün 14 ədəd stul verilmişdir. Yaxın günlərdə daşınan və daşınmaz seçki qutuları, ultrabənövşəyi lampalar və maye balonları seçki məntəqələrinə veriləcəkdir.

Seçki dairəsinin əhatə etdiyi bütün seçki məntəqələrində o, cümlədən səsvermə otağında və digər otaqlarda normal iş şəraiti yaradılmışdır. Bütün seçki məntəqələri səsvermə gününə tam hazır vəziyyətə gətirilmişdir. Məntəqələrdə məntəqələrin tanınma lövhələri, məlumat lövhələri, seçici siyahısı üçün lövhələr və Təşviqat lövhələri vurulmuşdur. Məlumat lövhələrində lazım olan materiallar o cümlədən, prezidentin sərəncamları, MnSK-nın dislokasiyası, MnSK-nın tərkibi barədə məlumat, növbətçilik cədvəli, 18 yaşlıların, ilk dəfə səs verənlərin adlı siyahısı, xəstə və yaşlı seçicilərin siyahısı vurulmuşdur. Məntəqələrdə lazım olan telefon - rabitə, fasiləsiz enerji təminatı və digər kommunikasiya işləri aparılır. 8 məntəqədə veb - kameraların quraşdırılması nəzərdə tutulmuşdur.

26 sentyabr 2016-cı il «Azərbaycan Respublikasının Konstitutsiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında» referendumun (ümumxalq səsverməsinin) keçirilməsi, ölkəmizin ictimai-siyasi həyatında böyük tarixi hadisədir.

58 saylı Hacıqabul-Kürdəmir Seçki Dairəsinin DSK-sı bildirir ki, 2016-cı il sentyabrın 26-na təyin edilmiş referendum (ümumxalq səsverməsi) seçki dairəsinin əhatə etdiyi bütün seçki məntəqələrində azad, demokratik,ədalətli və şəffaf şəkildə keçiriləcəkdir.

***Məhəmməd Hacıyev,***
***58 saylı Hacıqabul-Kürdəmir***
***DSK-nın sədri***

# Əzizə Cəfərzadənin yaradıcılığında tarixi şəxsiyyətlərin tərənnümü

Şair Qasım Qasımzadə hələ 1950-ci ildə "Azərbaycan gəncləri" qəzetinin 8 mart tarixli nömrəsindəki "İşıqlı yollar"adlı məqaləsində yazırdı "Azərbaycan qızları içərisində ədəbiyyat üzrə ilk dəfə dissertasiya müdafiə edən bu gənc qızın istedadına heyran qalmışıq".

Bəli, hələ neçə illər bundan əvvəl öz nadir istedadı ilə hamını heyran qoyan həmin gənc qız sonralar geniş oxucu kütləsinə yaxşı tanış olan və əsərləri sevilə-sevilə oxunan Əzizə Cəfərzadə idi. İndi isə o, təkcə yazıçı deyil, həm də gözəl müəllim və yüksək səviyyəli nəzəri biliyə malik olan bir tədqiqatçı alim kimi xatirələrdə yaşamaqdadır. Çünki onun yaradıcılıq dairəsi çox əhatəlidir, genişdir.

Əzizə Cəfərzadə ədəbiyyata 1937-ci ildə nəşr olunmuş "Əzrayıl" adlı hekayəsi ilə gəlmişdi. Bundan sonra arabir mətbuat səhifələrində xırda hekayələri ilə çıxış etsə də, onun bədii yaradıcılıq dövrü əsasən 60-cı illərin sonundan başlamışdır. Yazıçının bir-birinin ardınca müxtəlif vaxtlarda dərc etdirdiyi "Natəvan" haqqında hekayələr, "Qızımın hekayələri", "Sahibsiz ev", "Qızıl sahilə səyahət" və "Əllərini mənə ver" kimi neçə-neçə kitabları oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Onun ilk hekayələrindəki inamlı addımları sonralar özünü doğrultmuş, Əzizə xanım oxucularına daha kamil əsərləri olan povestləri və geniş epik planda yazılan tarixi romanları ilə sevindirmişdir. Bu baxımdan yazıçının Şirvanda yaşayıb yaratmış Azərbaycanın görkəmli sənətkarları haqqında danışan trilogiyası xüsusilə diqqətəlayiq olmuşdur.

Trilogiyanın "Vətənə qayıt" adlı birinci hissəsi XVII əsin sonu XVIII əsrin əvvəllərində yaşayıb-yaranmış Nişat Şirvaninin keşməkeşli həyatindan bəhs edir. "Aləmdə səsim var mənim" Seyid Əzim Şirvaninin, "Yad et məni" adlı üçüncü hissəsi isə Abbas Səhhətin həyatı fonunda baş verən mühüm hadisələr qələmə alınmışdır.

Əzizə Cəfərzadə tarixi şəxsiyyətlərin həyatına müraciət etsə də onun trilogiyası bədii tərcümeyi-hal xarakterində yazılmamışdır. Yalnız hər üç sənətkarın həyat və fəaliyyəti Əzizə Cəfərzadə üçün bədii vasitə rolu oynamış, o, bu görkəmli adamların həyatı ətrafında Azərbaycan xalqının mübarizələrlə dolu tarixin ən mühüm dövrlərini təsvir etmışdır. Lakin məlum olduğu kimi bu çox böyük və gərgin əmək sayəsində başa gəlmişdir. Bunun üçün Əzizə Cəfərzadə əsl tədqiqatçı zəhmətinə qatlaşmış, arxivləri araşdırmış, arxeologiyanı, etnoqrafiyanı və başqa sahələri öyrənməyə çalışmışdır. Xalqın bədii təfəkkürünə yaxından bələd olması yazıçıya kömək etmiş və buna görə də "Vətənə qayıt" əsərində hadisələrin cərəyan etdiyi tarixi dövr oxucuda bitkin təsəvvür yarada bilmişdir. Bu baxımdan romanın başlanğıcı olan "Beş qız idik..." hekayəsi xüsusilə nəzəri cəlb edir. Təsvir edilən hadisə xalqın faciəvi həyatını öyrənmək üçün oxucunu keçmişə aparır.

Əsasən tarixi mövzulara müraciət edən Ə.Cəfərzadə bir növ öz povestlərinə də bu baxımdan yanaşmışdır. "Hun dağı" adlı povestində yazıçı eramızdan əvvəl Azərbaycanda yaşayan ulu babalarımız hunların bu torpağa gəlişindən bəhs edir. "Cəlaliyyə" povestinin süjet xətti XII əsrdə Naxçıvanda hökmdarlıq etmiş Cəlaliyyə Xatunun həyatı və yaşadığı dövrdə baş verən ictimai-siyasi hadisələrlə bağlıdır. XVIII əsrin sonu, XIX əsrin ilk illərində Orta Asiya, Yaxın Şərq və başqa yerlərə səyahət etmiş coğrafiyaşünas alim Hacı Zeynalabdin Şirvaninin uşaqlıq illərindən danışan "Xoş gördük səyyah" povest də oxucu diqqətinə layiq bir əsərdir.

Bunlardan başqa Əzizə Cəfərzadənin müxtəlif vaxtlarda yazdığı "Əllərini mənə ver" və "Səməndər quşu" əsərləri nisbətən son dövrlərə həsr edilmişdir. Müasir quruculuğun, gəncliyin həyatından, məhəbbətindən bəhs edən bu povestlər həm mövzu, həm də bədii quruluş cəhətdən maraqla oxunmaqdadır.

Biz bir yazıçı kimi Əzizə Cəfərzadə bədii yaradıcılığına nəzər salanda görürük ki, o, 200-dən artıq elmi- publisistik məqalənin, oçerk və tədqiqatların müəllifidir.

İstedadlı alim həmişə axtarışdaydı. Onun 1971-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən buraxılmış "Fatma xanım Kəminə" (3), "Azərbaycan aşıq və şair qadınlar" (1), "Şirvanın üç şairi" (4), "Sünbülüstan" (5) və "Abdulla Padarlı" (6) adlı kitabları son dərəcə ağır və gərgin zəhmətin bəhrəsidir.

Əzizə Cəfərzadə oxuculra ilk tədqiqat əsəri kimi təqdim elədiyi "Fatma xanım Kəminə" adlı əsərində XIX əsrin ikinci yarısında yaşayıb-yaratmış, zahirən gözəl və qəlbən təmiz, əxlaqlı Fatma xanım Kəminənin həyatından və eyni zamanda yaradıcılığından danışır. Məlum olur ki, Fatma xanım Kəminə Şərqin Məhsəti, Nigar xanım, Nurcahan bəyim, Ayişə və Teyyibə kimi şairə qadınları içərisində xüsusi yeri olan şairlərdən imiş. O, Şuşada Mir Möhsün Nəvvabın başçılıq etdiyi "Məclisi Fəramuşan" kimi dövrün ədəbi məclislərində özünün ictimai-fəlsəfi fikirlərini ifadə edən saqinamə və qitələr söyləmişdir.

Bunlarla bərabər "Azərbaycanın aşıq və şair qadınları" kitabında adları çəkilən və şifahi ədəbiyyatımızın nümayəndələri olan aşıq və şair qadınların da yanıqlı nidalarını eşidirik. Aşıq Pəri, Aşıq Həmayil, Aşıq Bəsti və bir çox başqa Azərbaycan aşıqları öz ağılları, cəsarətli və hazırcavablıqları ilə nəzəri cəlb edirlər. Zamanın keşməkeşli yolları bu qadın sənətkarlarımızın arzularını gözlərində qoymuşdur. Lakin onlar heç də mütiləşib qalmırlar. Öz qoşmalarında, təcnislərində və gəraylılarında dövrün və ictimai mühitin daxili mahiyyətini cəsarətlə təsvir edirlər.

Gözəl müəllim, istedadlı alim və əbədiyaşar yazıçı Əzizə xanım Cəfərzadə ömrünün son günlərində həyatının ən müdrik çağlarını yaşayırdı. Dərya tutumlu ürəyi gəncliyin min bir arzuları ilə döyünür, yazıb-yaratmaq həvəsi ilə çırpınırdı.

Amma sənətkarın ömrü onun sənətinin ömrü qədərdir. Əgər belədirsə, o halda Əzizə xanım Cəfərzadə də ölməz sənətkarlarımızdan biri olaraq daim xatirələrdə yaşayacaqdır.

***Maşallah Xudubəyli,***
***AMEA Folklor İnstitutunun elmi işçisi***

# Şanlı teatr ənənələri olan rayon teatrı dirçəlir

***Bu yaxınlarda sabiq Hacıqabul stansiyası dəmiryolçular klubunda - hazırkı rayon Mədəniyyət Mərkəzində, 30 ildən artıq müddətdə - 1959-1991-ci illər aralığında onlarla əsərin tamaşaya qoyulduğu məşhur səhnədə Nəcəf bəy Vəzirovun "Dələduzlar" əsərinin (üç hissəli komediyanın) nümayiş etdirilməsilə şanlı teatr ənənələri olan Hacıqabul teatrının dirçəldilməsi yolunda ilk ciddi addım atılmış oldu.***



Tamaşa başlamazdan öncə uzun illər təhsil və mədəniyyət sahələrində çalışmış, rayon teatrının bərpasında əhəmiyyətli rolu olan, vaxtilə teatrın həvəskar aktyoru da olmuş Mübariz Xəlilov Hacıqabul teatrının zəngin tarixi barədə ətraflı məlumat verdi.

Tamaşaya tənqidi münasibətimizi bildirməzdən əvvəl, onun proqramı əsasında tamaşanı hazırlayanlar və iştirakçılar barədə qısa məlumat vermək istəyirik (Yeri gəlmişkən, tamaşanın proqramının, sadəcə, görünüşü belə, bizi teatrımızın keçmişinə qaytarmaqla, daxilimizdə acılı - şirinli nisgilli duyğuları yaratmış oldu...):

Quruluşçu rejissoru - Əkbər Zülfüqarov (Ümumittifaq - SSRİ İncəsənət festivalı laureatı),rejissor köməkçisi - Sücaət Mirzəyeva, tərtibatçı rəssamı - Rəsul Mirzəyev, musiqi tərtibatçısı - İsrayıl Baxşıyev, rolların ifaçıları Mirzədadaş - Vəkil Həsənov, Gülcahan (onun arvadı) - Sücaət Həsənova, Məcid (cavan tacir) - Əkbər Zülfüqarov, Qurbanəli (sərkar) - İslam Əliyev, divanbəyi - Arif Novruzov, fərraş Məmmədəli - Rövşən Babayev olan tamaşanın proqramına əlavə olaraq, qeyd edək ki, epizodik və kütləvi səhnələrdə iştirak edənlər sırasında yaxın keçmişdə teatrımızın dirçəldilməsi işinə öz töhfələrini vermiş Kamran Həsənov və Mahir Məmmədov da var idi ki, onların çıxışı bizdə sevinc hissi yaratdı və teatrımıza sadiqliklərinə görə onlara da minnətdarlığımızı bildirmək istəyirik.

Tamaşanı idarə etmək şərəfi isə mənə həvalə olunmuşdu. 25 il əvvəl bu məkanda səhnəyə qoyulmuş "Vəfalım" tamaşasındakı oyunumdan sonra bu, teatrdakı ikinci işim idi.

Yaşlı nəslin nümayəndələrinin teatrımızın tamaşalarından, müasirlərimizin isə Novruz şənliklərindən yaxşı tanıdığı Əkbər Zülfüqarov tamaşaya özünə məxsus quruluş vermiş, onu müasirləşdirməyə çalışmışdır.

Belə ki, orijinalında "Dələduz" adlanan əsər "Dələduzlar" kimi hazırlanmışdır ki, fikrimizcə, müvəffəqiyyətli interpretasiya - dəyişiklikdir, çünki "əsas" dələduz Mirzədadaşla birlikdə onun arvadı Gülcahan, sərkar Qurbanəli, fərraş Məmmədəli də bu ada tamamilə layiq personajlardır.

Mirzədadaş rolunun ifaçısı Vəkil Həsənov obrazını müvəffəqiyyətlə yaratmaqla bərabər, o, səhnə hərəkətləri ilə də bacarıqlı aktyor olduğunu sübut etdi.

Gülcahan obrazını yaratmış Sücaət Mirzəyeva həyatında ilk dəfə böyük səhnəyə çıxmasına baxmayaraq, kifayət qədər müvəffəqiyyətli oyun nümayiş etdirdi. Təqribən 200 tamaşaçı qarşısında duruş gətirməyin elə də asan olmadığını şəxsi təcrübəmizdən yaxşı bildiyimizdən, Sücaət xanımın oyununa "əla" qiymət verməkdən başqa bir şey qalmır.

Sərkar Qurbanəlini oynayan İslam Əliyevi də indiyədək Novruz səhnəciklərindən tanımışıq və onun da istedadlı teatr adamı olduğuna əmin olduq.



Divanbəyi rolu bir qədər statik - hərəkətsiz və nisbətən epizodik obraz olsa da, onun ifaçısı olan Arif Novruzovun oyununu da qədərincə məqbul hesab etmək lazımdır.

Fərraş Məmmədəli surətini canlandırmış Rövşən Babayevin oyununa gəlincə, nitqinin aydınlığı xüsusən diqqəti cəlb edirdi və onun da öz işinin öhdəsindən müvəffəqiyyətlə gəldiyini tam səmimiyyətilə söyləyə bilərik.

Tərtibatçı - rəssam, tamaşanın gedişində isə həm də fotoqraf vəzifələrini yerinə yetirmiş Rəsul Mirzəyevin və musiqi tərtibatçısı İsrayıl Baxşıyevin işini və zəhmətini də ayrıca qeyd etməyi lazım bilirik.

Ümid edirik ki, yeni dərs ilinin başlanması ilə teatrımızın da növbəti mövsümü başlanacaq və böyük səhnə ənənələri olmuş Hacıqabul teatrının istedadlı məktəblilərə və gənclərə əsaslanan, yeni nəslinin təşkil edəcəyi kollektivin əsası qoyulacaq və daha gözəl səhnə əsərləri tamaşaya qoyulacaqdır.

***Məhəmməd Hüseynoğlu,***
***rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru***

# 2016-cı ilin yanvar -iyun aylarında Hacıqabul rayonunun sosial-iqtisadi inkişafı

***2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunun iqtisadi və sosial həyatında son illərdə müşahidə olunan yüksəliş nəzərə çarpacaq dərəcədə yenə davam etmiş və rayonun iqtisadiyyatının inkişafını əks etdirən makrogöstəricilər ötən ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.***

**Əhali.** Hacıqabul rayonu 1990-cı ildə yaranmış rayonlardandır. Ərazisi 1,60 min kv.km-dir və respublika ərazisinin 1,9 faizini təşkil edir. Rayon üzrə əhalinin sıxlığı 1 kv.km-ə 45 nəfər təşkil edir. Hacıqabul rayonu respublikanın Abşeron, Qaradağ, Qobustan, Salyan, Sabirabad, Kürdəmir, Ağsu, Şamaxı rayonları və Şirvan şəhəri ilə həmsərhəddir. Rayonun özü 25 kənd, 5 qəsəbə və 1 şəhərdən ibarətdir.

2016-cı il iyulun 1-i vəziyyətinə Hacıqabul rayonunun əhalisinin sayı 73,0 min nəfər, o cümlədən şəhər əhalisinin sayı 36,8min nəfər, kənd əhalisinin sayı isə 36,2 min nəfər olmuşdur. 2016-cı ilin yanvar-iyun ayları ərzində rayon əhalisinin sayı 0,5 min nəfər və yaxud 0,7 faiz artmışdır.

Araşdırılan dövrdə Hacıqabul rayonunda 422 nəfər qaçqın, 1608 nəfər məcburi köçkün məskunlaşmışdır.

Rayon əhalisinin 50,6 faizini qadınlar, 49,4 faizini kişilər təşkil edir. Hacıqabul rayonunda əhalinin milli tərkibində əsas yeri ötən illərdə olduğu kimi azərbaycanlılar, ruslar və türklər tutmuşdur.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda 696 doğum və 210 ölüm faktı qeydə alınmışdır. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə doğulanların sayı 19,3-dən 19,2-yə qədər , ölənlərin sayı əhalinin hər 1000 nəfərinə 6,1-dən 5,8-ə qədər azalmışdır.

2016-cı ilin I yarımili ərzində rayonun VVADQ orqanları tərəfindən 224 nigah və 38 boşanma qeydə alınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə rəsmi qeydə alınan nigahların sayı 9,9-dan 6,2-yə qədər azalmış, boşanmaların sayı isə 0,9-dan 1,0-a qədər artmışdır.

2016-cı ilin yanvar-iyun ayları ərzində Hacıqabul rayonuna müxtəlif ünvanlardan 109 nəfər qeydiyyata düşmüş, 65 nəfər isə qeydiyyatdan çıxmışdır. Beləliklə, bu dövrdə rayonda miqrasiyanın saldosu müsbət 44 nəfər olmuşdur. Bu dövrdə rayonda əhalinin ümumi artımı 530 nəfər təşkil etmişdir.

**Səhiyyə.** Hacıqabul rayonunda 166 çarpayılıq 3 xəstəxana,12 ambulatoriya müəssisəsi əhaliyə müxtəlif səhiyyə xidmətləri göstərmişdir. Hesabat dövründə bu səhiyyə müəssisələrində 74 həkim, 219 nəfər orta tibb işçisi çalışmışdır.

Yanvar-iyun aylarında rayon əhalisinin hər 10 min nəfərinə 10,1 həkim, 30,0 orta tibb işçisi, 22,7 xəstəxana çarpayısı düşmüşdür. Hesabat dövründə səhiyyə ocaqlarına müxtəlif xəstəliklərdən 100610 xəstə müraciət etmişdir. Müraciət edən xəstələrdən 648 nəfəri xəstəxana şəraitində müalicə olunmuşdur.

Bu dövrdə qeydə alınmış xəstəliklər arasında qan dövranı xəstəlikləri, tənəffüs orqanları xəstəlikləri, əsəb sistemi xəstəlikləri üstünlük təşkil etmişdir.

**Təhsil və Mədəniyyət.** Hacıqabul rayonunda son illər təhsil və mədəniyyətin səviyyəsinin dəyişməsi halları müşahidə olunmaqdadır. 2015-2016-cı tədris ilinin əvvəlinə rayonda 33 ümumtəhsil məktəbi fəaliyyət göstərmişdir. Bu təhsil müəssisələrində 9711 nəfər şagird qeydə alınmışdır ki, bu da ötən tədris ili ilə müqayisədə 83 nəfər və yaxud 0,8 faiz çoxdur. Hesabat dövründə rayon təhsil sistemində 860 nəfər işçi çalışmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 26 nəfər və yaxud 2,9 faiz az olmuşdur.

2016-cı ilin I yarımili ərzində Hacıqabul rayonunda 3 məktəbəqədər müəssisə fəaliyyət göstərmişdir ki, bu müəssisələrdə tərbiyə alan uşaqların sayı 170 nəfər, rayonun məktəbəqədər müəssisələrində işləyənlərin sayı isə 47 nəfər təşkil etmişdir.

Mədəniyyət sahəsinə gəldikdə isə qeyd etmək lazımdır ki, Hacıqabul rayonu üzrə 27 kütləvi kitabxana, 19 klub müəssisəsi fəaliyyət göstərmişdir. 2016-cı ilin yanvar-iyun aylarında rayonun mədəniyyət sahəsində çalışanların orta aylıq sayı 232 nəfər təşkil etmişdir.

**Pensiya təminatı.** 2016-cı il iyulun 1-nə Hacıqabul rayonunda 7330 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuş, onlara təyin olunmuş aylıq pensiyaların orta məbləği isə 171,5 manat təşkil etmişdir. Qocalığa görə pensiya təyin olunmuşların sayı 4119, əlilliyə görə 1938, ailə başçısının itirilməsinə görə 1273 nəfər olmuşdur. Əhalinin Sosial Müdafiəsi Mərkəzində isə 2016-cı il iyulun 1-i vəziyyətinə 3423 nəfər müavinət alan qeydiyyatda olmuş, təyin olunmuş aylıq müavinətlərin orta məbləği 71,2 manat təşkil etmişdir.

2016-cı il iyulun 1-i vəziyyətinə rayonda 3521 nəfərə ünvanlı dövlət sosial yardımı təyin olunmuşdur. Bir nəfərə düşən yardımın orta aylıq həcmi 33,7 manat olmuşdur.

**Əmək bazarı.** Əhalinin həyat səviyyəsinin formalaşmasında digər amillərlə yanaşı məşğulluğun dəyişməsi və onun əmək bazarına təsiri mühüm rol oynayır.

2016-cı il iyulun 1-i vəziyyətinə Hacıqabul rayonunda işləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhalinin sayı 36,4 min nəfər olmuşdur. Bu isə ümumi rayon əhalisinin tərkibinin 49,9 faizini təşkil edir. İqtisadi fəal əhalinin tərkibində məşğul əhalinin xüsusi çəkisi 98,6 faiz, məşğulluq xidmətləri orqanı tərəfindən işsiz statusu verilmişlərin xüsusi çəkisi isə 1,4 faiz olmuşdur.

Rayon üzrə məşğul əhalinin 15,1 faizi dövlət sektorunda, 84,9 faizi isə qeyri-dövlət sektorunda çalışır. Bazar iqtisadiyyatına keçid şəraitində Hacıqabul rayonunun sosial-iqtisadi simasını müəyyən edən amillərdən biri də əhalinin məşğulluğudur.

Son illərdə rayondakı məşğul əhalinin tərkibində dövlət sektorunun payının tədricən azalması, qeyri-dövlət sektorunun payının artması müşahidə olunur. Xüsusi mülkiyyətdə olan sahələrdə məşğul əhalinin əsas hissəsi tikinti, kənd təsərrüfatı, ticarət və xidmət sferalarında çalışır.

Rayon məşğulluq xidməti orqanı tərəfindən 2016-cı il iyulun 1-nə rəsmi işsiz statusu almış şəxslərin sayı 528 nəfər kimi qeydə alınmışdır. Bu işsizlərin 47,4 faizini qadınlar, 52,6 faizini kişilər təşkil etmişdir.

Əhalinin həyat səviyyəsinin göstəricisi olan orta aylıq əmək haqqı 310,2 manat olmuşdur. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,9 faiz çoxdur. Ən yüksək əmək haqqı maliyyədə, nəqliyyatda, rabitədə, tikintidə, idarəetmədə qeydə alınmışdır. 2016-cı ilin yanvar -iyun aylarında Hacıqabul rayonunda 938 yeni iş yeri açılmışdır ki, bunların da bilavasitə 859-i daimi iş yerləridir.

Məhsul buraxılışı. 2015-ci ilin yekunlarına görə Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələri üzrə məhsul buraxılışının həcmi 219780,1 min manat olmuşdur. Rayon üzrə məhsul buraxılışının ötən ilin faktiki qiymətlərlə müqayisədə fiziki həcm indeksi 93,7 faiz olmuşdur.

Məhsul buraxılışının əsas hissəsi kənd təsərrüfatı istehsalı (54,2 faiz), ticarət və xidmət (26,6 faiz), tikinti (15,6 faiz) sektorlarının payına düşmüşdür. Sənaye, rabitə və nəqliyyat sahəsində məhsul buraxılışının həcmi isə müvafiq olaraq 1,9 faiz, 0,3 faiz və 1,4 faiz olmuşdur.

Əvvəlki ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə sənayedə 3,2 faiz, kənd təsərrüfatında 2,4 faiz, nəqliyyatda 5,0 faiz, ticarət və xidmət sahəsində 4,6 faiz artım müşahidə olunmuşdur.

2016-cı ilin yanvar-mart aylarında Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələri üzrə məhsul buraxılışının həcmi 43669,6 min manat olmuşdur. Rayon üzrə məhsul buraxılışının ötən ilin faktiki qiymətlərlə müqayisədə fiziki həcm indeksi 95,3 faiz təşkil etmişdir.

2016-cı ilin I rübündə rayon iqtisadiyyatının istehsal sahələrində məhsul buraxılışının həcmi 24782,4 min manat, xidmət sahələrində isə 18887,2 min manat olmuşdur. Rayonun məhsul buraxılışı həcmində istehsal sahələrinin payı 56,8 faiz, xidmət sahələrinin payı isə 43,2 faiz təşkil etmişdir.

Məhsul buraxılışının əsas hissəsi kənd təsərrüfatı istehsalı (49,8 faiz), ticarət və xidmət (41,2 faiz), tikinti (4,0 faiz) sektorlarının payına düşmüşdür. Sənaye, rabitə və nəqliyyat sahəsində məhsul buraxılışının həcmi isə müvafiq olaraq 2,9 faiz, 0,4 faiz və 1,7 faiz olmuşdur.

Əvvəlki ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə kənd təsərrüfatında 7,0 faiz, nəqliyyatda 8,8 faiz, rabitədə 28,5 faiz, ticarət və xidmət sahəsində isə 2,3 faiz artım müşahidə olunmuşdur.

**Kənd təsərrüfatı.** Hacıqabul rayonunun iqtisadiyyatının əsas hissəsini kənd təsərrüfatı təşkil edir. Rayonun iqtisadiyyatında taxılçılıq, pambıqçılıq, tərəvəzçilik, bostançılıq və heyvandarlıq aparıcı rol oynayır. Bununla yanaşı rayonun təsərrüfatlarında qarğıdalı, kartof, meyvə və üzüm və məhsulu da istehsal edilir. İlk dəfə olaraq Hacıqabul rayon ərazisində soya və şəkər çuğunduru bitkilərinin əkininə başlanılmışdır.

Belə ki, rayon üzrə 4094 hektar sahəyə yazlıq bitkilər, o cümlədən 632 hektar sahəyə çoxillik otlar, 778 hektar sahəyə tərəvəz, 1572 hektar sahəyə bostan bitkiləri, 346 hektar sahəyə dən üçün qarğıdalı, 40 hektar sahəyə soya, 160 hektar sahəyə şəkər çuğunduru, 526 hektar sahəyə pambıq, 40 hektar sahəyə kartof əkilmişdir.

Keçən illə müqayisədə tərəvəz sahəsi 4 hektar, qarğıdalı sahəsi 296 hektar və kartof sahəsi 1 hektar çox olmuşdur. Bu il əlavə olaraq sahələrə soya, şəkər çuğunduru və pambıq bitkisi əkilmişdir.

Əkilmiş 20927 hektar sahənin 13793 hektarını və ya 65,9 faizini payızlıq dənli bitkilərin, 346 hektarını və ya 1,6 faizini qarğıdalı bitkisi, 778 hektarını və ya 3,7 faizini tərəvəz bitkilərinin, 1572 hektarını və ya 7,5 faizini ərzaq üçün bostan bitkilərinin, 40 hektarını və ya 0,2 faizini kartof bitkisi, 726 hektarını və ya 3,5 faizini texniki bitkilərinin və 3672 hektarını və ya 17,5 faizini keçmiş illəri nəzərə almaqla yem bitkilərinin əkin sahəsi təşkil edir.

18.07.2016-cı il tarixə kimi əkilmiş 13793 hektar sahədən 47310 ton taxıl məhsulu yığılmışdır. 2016-cı ilin məhsulu üçün payızlıq dən sahələrindən 7130 hektarı buğda, 6663 hektarı isə arpa sahəsi olmuşdur. Mövsüm ərzində 25922 ton buğda, 21388 ton arpa məhsulu toplanmışdır. Ümumilikdə rayon üzrə taxıl bitkilərinin məhsuldarlığı hər hektara 34,3 sentner, o cümlədən məhsuldarlıq buğda məhsulu üçün 36,4 sentner, arpa məhsulu üçün 32,1 sentner olmuşdur.

2016-cı ilin 01 iyul tarixinə rayonun kənd əməkçiləri 778 hektar tərəvəz sahəsinin 507 hektarından 5299 ton tərəvəz məhsulu yığmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 21 ton çox tərəvəz məhsulu yığılmışdır. Tərəvəz yığımı davam edir.

Əvvəlki illərdən fərqli olaraq cari ildə rayonun kənd əməkçiləri 40 hektar sahəyə kartof əkmiş və sahələrdən 439 ton kartof məhsulu yığmışdır.

Rayon üzrə meyvə toplanması da davam edir. 01.07.2016-cı il vəziyyətinə rayon üzrə 2105 ton meyvə toplanmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 7 ton çox deməkdir. Hal-hazırda meyvə yığımı da davam edir.

Cari ilin altı ayında təqdim olunan statistik məlumatlara və müvafiq hesabatlara görə bütün təsərrüfat kateqoriyalarında 4599 ton diri çəkidə ət, 9840 ton süd, 161605 min ədəd yumurta və 225 ton yun istehsal edilmişdir. Keçən ilin müvafiq dövrünə nisbətən diri çəkidə ət istehsalı 3,8 faiz, yumurta istehsalı 7,5 faiz artmışdır.

Rayonda 2016-cı ilin iyulun 1-i vəziyyətinə 38206 baş iri buynuzlu mal qara, o cümlədən 16154 baş inək və camış, 135392 baş qoyun və keçi mövcud olmuşdur. 2016-cı ilin I yarısı ilə müqayisədə qaramalın sayı 479 baş, ana inək və camışın sayı 199 baş, qoyun və keçilərin sayı isə 914 baş artmışdır.

2016-cı ilin I yarımilində bitkiçilik və heyvandarlıq məhsullarının keçən ilin müvafiq dövrünə nisbətən artması bütövlükdə kənd təsərrüfatının ümumi məhsulunun müqayisəli qiymətlərlə dəyərini artırmağa imkan vermişdir. Cari ilin altı ayı ərzində bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı ümummməhsul fondunun artmasına təsir göstərmişdir.

**Sənaye.** 2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonu üzrə qeydə alınmış sənaye müəssisələrindən 9-u fəaliyyət göstərmişdir. Bu sənaye müəssisələrindən 6-sı iri, 3-ü isə kiçik sənaye müəssisəsidir.

2016-cı ilin yanvar- iyun aylarında Hacıqabul rayonu üzrə sənaye sahəsində 2091,6 min manatlıq faktiki qiymətlərlə sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Qeyd etmək lazımdır ki, sənaye sahəsində faktiki qiymətlərlə məhsul istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 4,2 faiz azalmışdır. Sənaye sahəsində rayon üzrə işin həcminin əsas hissəsi sənaye xarakterli xidmətlərdir.

Belə ki, 2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonu üzrə sənaye xarakterli xidmətlərin həcmi 2081,2 min manat, sənayedə istehsalın həcmi isə 10,4 min manat olmuşdur. Hesabat dövrü ərzində 70,3 Qvt.s elektrik enerjisi, 19,2 mln.kub metr təbii qaz, 0,2 min Qkal. buxar, 6,4 min manatlıq tullantı suları yüklənmişdir.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunun sənaye sahəsində işləyənlərin sayı 967 nəfər olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu sahədə çalışanların sayı göstəricisi 113,2 faiz təşkil etmişdir. Hesabat dövründə sənayedə çalışanlara 1719,3 min manat əmək haqqı hesablanmış, bu sahədə işləyən bir işçiyə düşən orta aylıq nominal əmək haqqı 296,4 manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə sənayedə çalışan bir işçiyə düşən əmək haqqı göstəricisi 12,2 faiz artmışdır.

Təbii qaz təchizatı sahəsində çalışanların orta aylıq nominal əmək haqqı göstəricisi rayon üzrə orta aylıq əmək haqqı göstəricisindən daha yüksək olmuşdur.

Respublikamızda azad sahibkarlıq mühitinin formalaşması yeni təsərrüfat formalarının yaranmasına təkan vermişdir. Fərdi sahibkarlıq buna nümunədir.

Cari ilin yanvar-iyun aylarında rayon üzrə sənaye sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 19,5 min manatlıq məhsul istehsalı qeydə alınmışdır. Fiziki şəxslər tərəfindən sənayedə istehsalın əsas hissəsini çörək məmulatları, plastik qapı və pəncərə istehsalı təşkil etmişdir.

**Nəqliyyat və rabitə.** Son illərdə azad sahibkarlıq mühitinin getdikcə formalaşması yeni nəqliyyat xidməti formalarının yaranmasına təkan vermişdir. Bu da rayondakı nəqliyyat xidmətinin böyük hissəsinin yeni yaradılmış sahibkarlıq subyektlərinin üzərinə yüklənməsinə səbəb olmuşdur.

2016-cı ilin əvvəlinə rayonda 5360 ədəd avtomobil mövcud olmuşdur ki, bunlardan da 81,2 faizi minik, 15,8 faizi yük, 1,9 faizi sərnişin avtobusları, 1,1 faizi isə digər təyinatlı avtomobillər olmuşdur. Hazırda Hacıqabulda hər 100 ailəyə 33 şəxsi minik avtomobili düşür.

2015-ci ilin yanvar - dekabr aylarında rayonda avtomobil nəqliyyatı ilə hüquqi və fiziki şəxslər tərəfindən 250,0 min ton yük, 5418 min nəfər sərnişin daşınmış və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə yükdaşınmalar və sərnişindaşınmalar 5,9 faiz və 6,2 faiz artmışdır.

2016-cı ilin yanvar-iyun aylarında rayonda avtomobil nəqliyyatı ilə hüquqi və fiziki şəxslər tərəfindən 118,0 min ton yük, 2617 min nəfər sərnişin daşınmış və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə yükdaşınmalar və sərnişindaşınmalar 3,5 faiz və 4,1 faiz artmışdır.

Rayon əhalisinin telefon təminatını inkişaf etdirmək üçün 7164 nömrə tutumuna malik olan 20 ATS fəaliyyət göstərmişdir. Əsas telefon aparatlarının sayı 6143 nömrə təşkil etmiş, onların 91,7 faizi əhalinin istifadəsinə verilmişdir. Rayonda hər 100 ailədən 43-nün telefon təminatı vardır.

2015-ci ilin yanvar-dekabr aylarında rayon rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, habelə əhaliyə 588,9 min manatlıq xidmətlər göstərilmişdir. Bu isə ötən ilin müvafiq dövrünə nisbətən 11,9 faiz artım deməkdir.

2016-cı ilin yanvar-iyun aylarında rayon rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, habelə əhaliyə 312,7 min manatlıq xidmətlər göstərilmişdir. Bu isə ötən ilin müvafiq dövrünə nisbətən 10,7 faiz artım deməkdir.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunun rabitə müəssisələrində çalışanların sayı 44 nəfər olmuşdur. Bu sahədə çalışanların əmək haqqı fondu 108,5 min manat, bir işçiyə düşən orta aylıq nominal əmək haqqı isə 411,0 manat təşkil etmişdir. Ötən illə müqayisədə rabitə sektorunda çalışanların ümumi əmək haqqı fondu 8,0 faiz, bu sahədə çalışan bir işçinin orta aylıq nominal əmək haqqı isə 8,0 faiz artmışdır.

**Tikinti.** Respublikanın bütün rayonlarında olduğu kimi Hacıqabul rayonunda da təmir- tikinti və yol, tikinti işlərinə xüsusi diqqət yetirilir. Bu sahədəki işlər respublika Prezidentinin regionların sosial-iqtisadi inkişaf proqramının təsdiqindən sonra daha da intensivləşdirilmişdir.

2016-cı ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələri hesabına Hacıqabul rayonunda 5330,9 min manatlıq əsas fondlar istifadəyə verilmiş, iqtisadiyyatın və sosial sahələrin inkişafına əsas kapitala 3168,4 min manatlıq investisiyalar yönəldilmişdir. İnvestisiyaların 3090,4 min manatı və ya 97,5 faizi tikinti quraşdırma işlərinə yönəldilmişdir. 2016-cı yanvar-iyun aylarında rayon üzrə adambaşına düşən investisiyanın həcmi 44,1 manat təşkil etmişdir.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayon ərazisində 7,4 min kv.m fərdi yaşayış sahəsi istifadəyə verilmişdir.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda qeydiyyatdan keçmiş tikinti təşkilatlarından 4-ü fəaliyyət göstərmiş və onlar öz güclərilə 1044,8 min manatlıq tikinti quraşdırma işləri yerinə yetirmişlər. Tikinti quraşdırma işlərinin faktiki qiymətlərlə həcminin ötən ilin müvafiq dövrünə nisbəti 113,2 faiz olmuşdur.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda fəaliyyət göstərmiş podratçı tikinti təşkilatlarında çalışanların orta siyahı sayı 116 nəfər olmuşdur. Bu sahədə çalışanların araşdırılan dövr üçün hesablanmış əmək haqqı fondu 163,0 min manat təşkil etmişdir. Bu sahədə çalışan bir işçiyə hesablanmış nominal orta aylıq əmək haqqı 234,2 manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrünə nisbətən tikintidə çalışan bir işçinin orta aylıq nominal əmək haqqı 93,0 olmuşdur.

**İstehlak bazarı.** Ölkənin sosial - iqtisadi vəziyyətini xarakterizə edən mühüm təyinedicilərdən biri olan ticarətin əsas göstəriciləri azad sahibkarlığın inkişafını məhdudlaşdıran amillərin aradan qaldırılması üçün verilmiş qanun və formaların təbiqi ilə əlaqədar respublikanın bütün rayonlarında olduğu kimi Hacıqabulda da xeyli yaxşılaşmışdır.

Ticarətin göstəricilərinin yaxşılaşmasına Hacıqabul rayonunda ticarətlə məşğul olan özəl müəssisələrin və fiziki şəxslərin fəaliyyətinin genişləndirilməsi, istehlak mallarının böyük hissəsinin ticarətin bu kanalları vasitəsilə satılması öz müsbət təsirini göstərmişdir.

Ticarətlə məşğul olan hüquqi və fiziki şəxslərin sayının, əmtəə dövriyyəsinin artması Hacıqabul rayonunda ticarətin ardıcıl inkişaf etməsinə əyani sübutdur.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda ticarətin bütün kanalları vasitəsilə əhaliyə 95109,8 min manatlıq müxtəlif istehlak malları satılmış, eyni dövrdə əhaliyə 13880,0 min manatlıq pullu xidmətlər göstərilmişdir.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə rayon üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmi 1,4 faiz, pullu xidmətlərin həcmi isə 3,5 faiz artmışdır.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda pərakəndə əmtəə dövriyyəsinin həcmi 94310,0 min manat, ictimai iaşə əmtəə dövriyyəsinin həcmi isə 1690,0 min manat olmuşdur.

Pərakəndə qaydada realizə olunmuş istehlak mallarının 8,2 faizi qeydiyyatdan keçmiş ticarət təşkilatları, 4,4 faizi əşya, qarışıq mallar və ərzaq yarmarkası, kənd təsərrüfat bazarı, 87,4 faizi isə digər fiziki şəxslərin payına düşmüşdür.

2016-cı il iyulun 1-nə ticarət təşkilatlarının anbarlarında 10252,6 min manatlıq əmtəə məhsulları qalığı qeydə alınmışdır.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda adambaşına düşən pərakəndə əmtəə dövriyyəsinin orta aylıq həcmi 216,1 manat olmuşdur.

Araşdırılan dövr ərzində Hacıqabul rayonunda əhaliyə 13880,0 min manatlıq müxtəlif pullu xidmətlər göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 3,5 faiz çox deməkdir.

Dövlət sektorunda olan təşkilatlar tərəfindən əhaliyə 1390,5 min manatlıq, qeyri-dövlət sektorunda olan təşkilatlar tərəfindən isə 12489,5 min manatlıq müxtəlif pullu xidmətlər göstərilmişdir.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayonunda əhaliyə 2860,0 min manatlıq məişət xidmətləri göstərilmişdir. Əhaliyə göstərilmiş pullu xidmətlərin ümumi həcmində məişət xidmətlərinin payı 20,6 faiz olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə məişət xidmətlərinin həcmi 6,2 faiz artmışdır.

**Qiymət indeksləri.** 2016-cı ilin yanvar - iyun aylarında Hacıqabul rayonu üzrə istehlak məhsullarının və xidmətlərinin ötən ilin müvafiq dövrünə nisbətən qiymət indeksi 113,1 faiz təşkil etmişdir. Bu göstərici rayonda istehlak olunan ərzaq məhsulları üzrə 115,9 faiz, qeyri ərzaq məhsulları üzrə 122,8 faiz, xidmətlər üzrə isə 101,1 faiz təşkil etmişdir.

**Bələdiyyələr.** 2000-ci ildən Hacıqabul rayonunda yeni yerli özünü idarəetmə orqanları olan bələdiyyə qurumları fəaliyyət göstərməyə başlamışdır. 2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayon bələdiyyələrinin fonduna 98,0 min manatlıq gəlirlər daxil olmuşdur. Bələdiyyə gəlirlərinin 12,8 faizi vergilərdən, 87,2 faizi digər yığımlardan formalaşmışdır. Ötən ilin müvafiq dövrünə nisbətən vergilərdən daxilolmalar 29,2 faiz az , digər yığımlar isə 3,0 dəfə çox olmuşdur. Rayonun bələdiyyə qurumlarında çalışanların sayı 2016-cı ilin yanvar-iyun aylarında 42 nəfər, bu sahədə çalışanların əmək haqqı fondu 36,8 min manat olmuşdur. Bələdiyyədə çalışan bir işçiyə düşən orta aylıq nominal əmək haqqı 146,2 manat olmuşdur.

**Yanacaq, enerji təchizatı.** 2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayon büdcə təşkilatları 4261,0 min kvt/saat elektrik enerjisi, 409,4 Qkal. istilik enerjisi, 292,5 min kub metr təbii qaz, 17,5 min kub metr su və 20,1 min manatlıq rabitə və internet xidmətlərindən istifadə etmişlər.

2016-cı ilin yanvar-iyun aylarında Hacıqabul rayon büdcə təşkilatlarının istehlak etdikləri elektrik enerjisinin, istilik enerjisinin, təbii qaz, su və rabitə xidmətlərinin ümumi dəyəri 332,4 min manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 9,7 faiz az olmuşdur.

Büdcə təşkilatları istifadə etdikləri resursların dəyərinin 75,6 faizini, o cümlədən elektrik enerjisi dəyərinin 73,7 faizini, istilik enerjisi dəyərinin 58,8 faizini, təbii qazın dəyərinin 77,4 faizini, suyun dəyərinin 93,0 faizini, rabitə və intenet xidmətlərinin dəyərinin isə 97,5 faizini ödəmişlər.

***Rayon Statistika İdarəsi***

# HACIQABUL

№ 17 (651) 03 avqust 2016-cı il


# Meşələr sərvətimizdir, onları qoruyaq

Bioloji cəhətdən öz inkişafında bir-birinə qarşılıqlı təsir göstərən torpağın, suyun, ağac, kol, ot bitkilərinin, heyvanat aləminin, mikroorqanizmlərin vəhdəti hesab edilən meşə sahələri Azərbaycanın ən qiymətli milli təbii sərvəti hesab olunur. Münbit torpaqlarımızın yuyulub getməsinin qarşısının alınmasında, sel daşqınlarının minimuma endirilməsində, tarlaların küləkdən və quraqlıqdan qorunmasında meşələrin müstəsna əhəmiyyəti vardır.

İnsanların həyat və fəaliyyətində mühüm rol oynayan, sözün həqiqi mənasında onların qayğısına qalan meşələrin özünün daim qayğıya ehtiyacı var. Meşələrdən bəhrələnməklə, onun sərvətlərindən istifadə etməklə yanaşı, təbiətin bu füsunkar nemətini qorumaq, onu gələcək nəsillərə ərməğan etmək hər bir vətəndaşın borcudur.



Meşələrin məhv olmasının əsas səbəblərindən biri onun xüsusən yay aylarında yanğınlara məruz qalmasıdır. Meşələrimizin yanğın təhlükəsizliyini təmin etmək üçün bir sıra zəruri tədbirlərin həyata keçirilməsi vacibdir.

Birinci növbədə qeyd edilməlidir ki, respublikamızın meşələrində yanğın təhlükəsizliyinin təşkil olunmasında məsuliyyət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin, onun yerlərdəki strukturlarının üzərinə düşür. Meşələrdə yanğın təhlükəsizliyinə cavabdeh olan şəxslər, o cümlədən meşə mühafizə mühəndisləri meşələrin yanğın təhlükəsizliyi qaydalarını bilməklə meşə sahələrində və zolaqlarında yanğına qarşı ciddi rejim təyin etməli və bu rejimə riayət olunmasını daim nəzarətdə saxlamalıdırlar. Meşə təsərrüfatının rəhbər işçiləri mütəmadi olaraq yanğınsöndürmə texnikalarının və vasitələrinin, təbii və süni su mənbələrinin, keçidlərin, yolların vəziyyətini yoxlamalı, yanğınsöndürmə xidmətinin çağırılması, yanğınsöndürmə avadanlıqlarından düzgün istifadə edilməsi ilə bağlı işçilərlə təlim məşqləri keçirməlidirlər. Meşə və meşə zolaqlarında yanğınların baş verməsinə səbəb ola bilən nöqsanların aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, həmçinin yanğınsöndürmə texnikasına və vasitələrinə vaxtlı-vaxtında texniki xidmətin göstərilməsinin təşkil edilməsi də zəruridir.

Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət etmək məqsədi ilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirməli, yanğın baş verən zaman yanğınsöndürmə xidmətini hadisə yerinə çağırmalı, yanğının söndürülməsi üçün mövcud vasitələri təşkil etməlidirlər.

Meşə yanğınlarından bəhs edərkən xüsusilə vurğulanmalıdır ki, bu sahədə baş verən 10 yanğından 9-u odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, isinmək, xörək bişirmək üçün qalanmış tonqallar və meşəni tərk edərkən bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması meşə yanğınlarına səbəb olur. Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir.

Meşədə yanğınlara yol verilməməsi üçün yanğın təhlükəsizliyi istiqamətində bir sıra qaydalara əməl olunması zəruridir. Meşə sahələrində söndürülməmiş kibritin, yanan siqaret qalığının və ya kötüyünün hara gəldi atılması, eləcə də tonqalların yandırılması və ağac kömürü istehsal etmək üçün xüsusi ocaqxanaların təşkil edilməsi qadağandır. Küləkli havada tonqalların qalanması xüsusilə təhlükəlidir.

Meşələrə sürtgü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərə bulaşmış əski və digər materialları atmaq olmaz. Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir.

Dövlət meşə torpaq fondunun, habelə meşə torpaq fondu ilə həmsərhəd olan sahələrdə qurumuş otların, kövşənlərin müəssisələr, idarələr, təşkilatlar və fermer təsərrüfatları, eləcə də əhali tərəfindən yandırılmasına icazə verilməməlidir. Meşələrdə yanacaq və sürtkü yağlarının açıq şəkildə saxlanılması da yanğın təhlükəlidir.

Yanğın təhlükəsindən uzaq olmaq üçün meşədə emal edilmiş hazır meşə materialları açıq sahədə müəyyən olunmuş qaydada yığılıb saxlanılmalıdır. Belə ki, meşə materialları yığılan yerlər və yanğına qarşı ara məsafələr yanar materiallardan təmizlənməli, eni 1,4 metrdən az olmayaraq minerallaşdırılmış zolaqlarla haşiyələnməlidir.

Turist istirahət zonaları, gənclər və uşaq təşkilatları tərəfindən dövlət meşə fondu torpağında keçirilən kütləvi tədbirlər zamanı tonqallar yalnız Meşə mühafizəsi və Bərpası müəssisəsinin icazəsi ilə bu təşkilatın ayırdığı xüsusi yerlərdə qalana bilər. Tullantıların yandırılması da bütün hallarda həmin təşkilatla razılaşdırılmalıdır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, meşədə yanğınların baş verməsinə şərait yaradan əsas səbəblərdən biri tonqallardır. Bunu nəzərə alaraq tonqallarla əlaqədar vətəndaşlara meşələrdə yanğın təhlükəsizliyini təmin etmək məqsədilə bəzi tövsiyyələri verməyi məqsədəuyğun sayırıq. Birinci növbədə qeyd etmək lazımdır ki, tonqal yandırılarkən bütün təhlükəsizlik qaydalarına əməl etmək vacibdir. Tonqal heç bir halda ağacın altında (xüsusən də budaqları aşağı sallanan ağacların altında) yandırılmamalıdır. Quru ağac kötükləri və quru ot olan ərazidə də od qalamaq olmaz. Tonqal qalamaq üçün əvvəlcədən yer hazırlamaq və yaxud da köhnə, qalanmış tonqalın yerindən istifadə etmək lazımdır. Tonqal qalamaq üçün ilk növbədə ağaclardan xeyli aralıda yer hazırlamaq məqsədəmüvafiqdir. Həmin ərazi otlardan təmizlənməli, sonra isə yandırılacaq odun parçaları üçün bel vasitəsi ilə çala qazılmalıdır. Tonqal ətrafındakı otları 0,5-1 metr radiusunda təmizləmək lazımdır. Tonqalı söndürüb oranı tərk edən zaman közün üstü torpaqla örtülməlidir.

Tonqal heç zaman nəzarətsiz qalmamalıdır. Ehtiyatda olan yanacaq məhlulu tonqaldan 3-5 metr aralıda saxlanmalıdır. Əgər ehtiyac yoxdursa, çox hündür tonqal qalamaq lazım deyil. Diqqət yetirilməlidir ki, tonqaldan kənara az qığılcım düşsün. Xüsusən də küləkli havada bu, çox təhlükəlidir. Tonqalı yandırarkən küləyin gücünə və istiqamətinə uyğun tonqal yandırmaq lazımdır. Çünki kənara sıçrayan qığılcımlar otun və yarpaqların alışmasına səbəb ola bilər. Çalışmaq lazımdır ki, yarpaqları qurumuş budaqlardan istifadə edilməsin, çünki bu zaman qırağa təkcə qığılcımlar deyil, yanan yarpaqlar da səpələnə bilər. Ərazini tərk edən zaman tonqalı tam söndürməli, üzərinə su atmalı, sonra isə üstü torpaqla örtülməlidir. Əgər tonqalın içində közərən kömür parçaları olarsa, tonqala yenə də su tökülməlidir. Söndürülmüş tonqaldan tüstü və ya buxar çıxarsa, tələsik oradan aralanıb getmək olmaz. Gedərkən tam əmin olmaq lazımdır ki, tonqal tamamilə sönüb və sonradan alışma ehtimalı yoxdur.

Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin tör-töküntülərdən təmizlənməsi təmin edilməli, meşənin ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şumlanmalı və ya yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Meşədən və ya meşə zolağından keçən avtomobil və dəmir yollarının hər iki tərəfi 10 metr məsafədə meşə tör-töküntülərindən, yanar materiallardan təmizlənməli və yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Bütün bunlarla yanaşı meşələrimizlə əlaqədə olan hər bir vətəndaş təbiətin bu əvəzsiz sərvətin yanğın təhlükəsizliyinin qayğısına qalmaqdır.

***FHN DYNX-nın Muğan Regional Dövlət Yanğın Nəzarəti İdarəsi***

# 65 yaşın işığında



Avqust ayının 3-də Alik Rzayevin altmış beş yaşı tamam olur.

Nəinki Hacıqabulun, həm də ətraf şəhər və rayonların da mədəni ictimaiyyətinin yaxşı tanıdığı, bütün şüurlu həyatını yazıb-yaratmaq işinə həsr etmiş, eyni vaxtda üç cəbhədə "vuruşmuş" - təhsil, mətbuat və nəşriyyat sahələrində çalışmış Alik Ağəli oğlu minlərlə məqalələri, onlarla kitabı ilə fəxr edə biləcək xoşbəxt qələm sahibi, maarif adamıdır.

Təhsil sahəsində məktəb direktoru, mətbuat işində qəzet redaktoru mövqelərinə qədər yüksələ bilmiş Alik müəllim müəllif, redaktor, yaxud tərtibçi olaraq, dünya işığı görmələrinin səbəbkarı olduğu 30-dan artıq kitabında Hacıqabulumuzun və qonşu rayon - şəhərlərin tibb işçilərindən, müəllim və şagirdlərindən, mömin, sənətkar və ziyalılarından bəhs etmiş və ömrünün bu müdriklik çağında da həmin işi davam etdirir.

Beş il əvvəl Alik müəllimin 60 illiyi münasibətilə onun haqqında qəzetimizdə böyük bir yazı yazmışdıq. İnşallah, 70 yaşının tamamında daha sanballı bir məqalə qələmə almaq arzusu ilə Alik müəllimə can sağlığı və yaradıcılıq uğurları arzulayırıq.

Beləliklə, ömür vəfa edərsə, yaşamaq Alik müəllimdən, yazmaq bizdən olsun!

Təbrik edirik!

***Məhəmməd Hüseynoğlu***



## Əliş Səmədov

### Gördüm

Ceyranları oylaqlarda,
Balasın izləyən gördüm.
Sevənləri bulaqlarda
Yarını gözləyən gördüm.

Durnaları pıçıldaşıb,
Kəklikləri qaqqıldaşıb,
Maralların əqli çaşıb,
Mənə göz eyləyən gördüm.

Baxdım əqli kamalına,
Vuruldum ay camalına,
Həsrət qaldım vüsalına,
Ürəymi dözməyən gördüm.

Sinəsini gərə-gərə,
Kuzəsini qoydu yerə,
Çiçəkləri dərə-dərə,
Toxunub iyləyən gördüm.

Aynanı tutdu üzünə,
Sürməni çəkdi gözünə,
Cəlb etdi məni özünə,
Ümüdmü üzməyən gördüm.

Ətirlədi yanağını,
Badam püstə dodağını,
Məhəbbətin çırağını
Silib təmizləyən gördüm.

Yandım, Əliş, alovlandım,
Məhəbbətə cilovlandım,
Kimlə sevgiyə culandım,
Qədrimi bilməyən gördüm.

### Mənim

Ürəyimin sərvətidir,
Zehnimdəki sözlər mənim.
Həyatımın zinətidir,
Qəlbimdəki izlər mənim.

Məcnun sözü əfsanədir,
Leyli özü divanədir,
Gəncliyimdən nişanədir,
Sinəmdəki sözlər mənim.

Çox sonalar göldə üzdü,
Qönçəsindən ətir süzdü,
Ürəyimi çəkdi, üzdü,
Bir cüt ala gözlər mənim.

İlahinin qüdrətiylə,
Təbiətin hikmətiylə,
Ceyran cüyür zinətiylə,
Təsəllimdi düzlər mənim.

Lalə kimi yanaqlardan,
Badam, püstə dodaqlardan,
Nanə, tərxun buxaqlardan,
Təravətli üzlər mənim.



## Darıxma, əzizim

Sən darıxma, əzizim,
Yağıb kəsər bu yağış.
Çəkilər yolumuzdan,
Axıb keçər bu yağış

Yenə görüşərik biz,
Dağlar göydə duman.
Sən darıxma, əzizim,
Gələr o gün, o zaman.

Qışda yığışıb gedər,
Əriyər dağlarda qar.
Darıxma sən, əzizim,
Qovuşmağın yolu var.

Günəş çıxar zülmətdən,
Sevgimə işıq salar.
Sən darıxma qəm, kədər
Ötər geridə qalar.

***Hədiyyə Sabir qızı,***
***Yazıçılar birliyinin üzvü,***
***"Qızıl qələm" mükafatçısı***

## Etibarsız sayılır

Hacıqabul rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 02 fevral tarixli 03 saylı qərarı ilə Navahı kənd sakini Mufti Bəkirin adına verilmiş JN-255, kodu 91006027 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Rayon İslahat Komissiyasının qərarı ilə Əzizova Minayə Həsən qızının adına verilmiş JN-369A, kodu 91007027 olan Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.


HACIQABUL

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi
Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son dakika MMC" mətbəəsində çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri,
İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200